# “AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ”
## Qapalı Səhmdar Cəmiyyəti

**31 dekabr 2024-cü il tarixinə**
**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına**
**Uyğun Maliyyə Hesabatları və**
**Müstəqil Auditor Hesabatı**

# 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC–nin dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələri, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-in xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına;

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə bitən il üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

Məmmədov Rövşən
Sədr

AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ
AZERBAIJAN TELEVISION AND RADIO BROADCASTING CLOSED JOINT-STOCK COMPANY

Əsədzadə Aysel
Maliyyə və Mühasibat uçotu departamentinin rəisi

Grow Audit and Consulting QSC
8 Noyabr pr, AZURE bizness mərkəzi
AZ1025, Bakı, Azərbaycan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

Grow Audit and Consulting CJSC
8 November ave, AZURE business centre
AZ1025, Baku, Azerbaijan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC – nin idarə heyətinə:**

**Maliyyə hesabatlarının auditinə dair hesabat:**

**Müsbət rəy**

Biz, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

## Müsbət rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**
Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Grow Audit and Consulting QSC
8 Noyabr pr, AZURE biznes mərkəzi
AZ1025, Bakı, Azərbaycan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

Grow Audit and Consulting CJSC
8 November ave, AZURE business centre
AZ1025, Baku, Azerbaijan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

## Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Cəmiyyətin Sədri, cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz əlavə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifin aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;

GROW
A U D I T

Grow Audit and Consulting QSC
8 Noyabr pr, AZURE biznes mərkəzi
AZ1025, Bakı, Azərbaycan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

Grow Audit and Consulting CJSC
8 November ave, AZURE business centre
AZ1025, Baku, Azerbaijan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır, Lakin sonrakı hadisələr və ya şəraitlər cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz cəmiyyətin Sədrinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin cəmiyyətin Sədrinə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Cəmiyyətin Sədrinin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"GROW AUDIT AND CONSULTING" Qapalı Səhmdar Cəmiyyəti**

**Bakı, Azərbaycan Respublikası** **Turan Talıbova**

**2 Dekabr 2025-ci il**

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

| | Qeyd | 2024-cü il | 2023-cü il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 10 | 16,663,263 | 18,591,456 |
| Qeyri - maddi aktivlər | 9 | 11,809,622 | 10,517,740 |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | 8 | 1,609,327 | 1,678,769 |
| Uzunmüddətli debitor borcları | | - | 1,420 |
| **Uzunmüddətli aktivlər** | | **30,082,212** | **30,789,386** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 31,233 | 17,994 |
| Ticari və sair debitor borcları | 13 | 6,682 | 9,440 |
| Ehtiyatlar | 14 | 3,936,014 | 3,932,009 |
| Verilmiş avanslar | 15 | 21,371 | 32,230 |
| Sair aktivlər | 16 | 86,401 | 51,924 |
| **Cari aktivlər** | | **4,081,702** | **4,043,597** |
| **Cəmi aktivlər** | | **34,163,914** | **34,832,982** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 17 | 10,725,820 | 10,725,820 |
| Bölüşdürülməmiş mənfəət | | 17,232,103 | 18,304,549 |
| Yenidən qiymətləndirilmə üzrə ehtiyat | | 3,865,571 | 4,156,528 |
| **Cəmi kapital** | | **31,823,494** | **33,186,897** |
| **Öhdəliklər** | | | |
| Ticari və sair kreditor borcları | 18 | 1,869,747 | 1,636,055 |
| Müqavilə öhdəlikləri | 19 | 10,030 | 10,030 |
| Digər öhdəliklər | 20 | 460,643 | - |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **2,340,419** | **1,646,085** |
| **Cəmi kapital və öhdəliklər** | | **34,163,914** | **34,832,982** |

AZƏRBAYCAN TELEVIZIYA VƏ RADIO VERİLİŞLƏRİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ
AZERBAIJAN TELEVISION AND RADIO BROADCASTING CLOSED JOINT-STOCK COMPANY

Məmmədov Rövşən
Sədr

Əsədzadə Aysel
Maliyyə və Mühasibat uçotu departamentinin rəisi

9-34-cü səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **01 yanvar 2023-cü il tarixində qalıq** | **10,725,820** | **18,692,360** | **(1,068,821)** | **4,444,569** | **32,793,928** |
| İl üzrə mənfəət | - | - | - | -- | - |
| Xalis aktivlərdə (kapitalda) artma(azalma) | - | (18,692,360) | 19,373,370 | - | **681,010** |
| Tikililər üzrə yığılmış amortizasiya (binalar) | - | - | - | (288,041) | **(288,041)** |
| **31 dekabr 2023-cü il tarixində qalıq** | **10,725,820** | **-** | **18,304,549** | **4,156,528** | **33,186,897** |
| | | | | | |
| **01 yanvar 2024-cü il tarixində qalıq** | **10,725,820** | **-** | **18,304,549** | **4,156,528** | **33,186,897** |
| İl üzrə mənfəət | -- | - | (1,363,403) | - | **(1,363,403)** |
| Tikililər üzrə yığılmış amortizasiya (binalar) | | - | 290,957 | (290,957) | - |
| **31 dekabr 2024-cü il tarixində qalıq** | **10,725,820** | **-** | **17,232,103** | **3,865,571** | **31,823,494** |

Məmmədov Rövşən
Sədr

Əsədzadə Aysel
Maliyyə və Mühasibat uçotu departamentinin rəisi

9-34-cü səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# 1. KORPORATİV MƏLUMAT

Cəmiyyətin 31 dekabr 2024-cü il üzrə uçot siyasəti hesablama metoduna əsaslanır. Hazırkı maliyyə hesabatları 31 dekabr 2024-cü ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ("Cəmiyyət") üçün tərtib edilmişdir.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 23 mart tarixli 213 nömrəli Fərmanı ilə Azərbaycan Televiziya və Radio Verilişləri şirkətinin bazasında yaradılmışdır. VÖEN 9900062371 Dövlət Qeydiyyat nömrəli "Azərbaycan Televiziya və Radio Verilişləri" adı ilə təsis edilmişdir.

***Əsas fəaliyyət istiqamətləri:*** Cəmiyyətin əsas fəaliyyətinə aşağıdakılar daxildir, lakin bunlarla məhdudlaşmır:

- Dövlətin və cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici televiziya və radio proqramlarının hazırlanması, onların Azərbaycan Respublikasının ərazisində və xarici ölkələrdə yayımlanması, televiziya və radio proqramlarının müvafiq ideya-bədii səviyyəsinin təmin edilməsi, cəmiyyətin demokratikləşməsi sahəsində onların təsirinin gücləndirilməsinin həyata keçirilməsi;
- Peyk, kabel, yerüstü qurğular, internet və s. rabitə vasitələri ilə teleradio siqnallarının yayılması və retranslyasiyası;
- Mövcud olan peyk, kabel və digər rabitə sistemlərinin istismarı və yenilərinin yaradılması;
- Yayım zamanı ictimaiyyətin maraqlarının, mədəni və mənəvi dəyərlərin qorunması;
- Televiziya və radio verilişlərinin inkişafı sahəsində beynəlxalq əlaqələrin yaradılması.

Cəmiyyətin hüquqi ünvanı: AZ1073, Bakı şəhəri Yasamal rayonu, Mehdi Hüseyn, ev 1.
31 dekabr 2024-cü il tarixində Cəmiyyətin mülkiyyətinin pay bölgüsü aşağıdakı kimi olmuşdur:

| **Mülkiyyətçi** | **2024 (%)** | **2023 (%)** |
|---|---|---|
| Azərbaycan Respublikası | 100 | 100 |
| | **100** | **100** |

# 2. TƏQDİM ETMƏNİN ƏSASLARI

Maliyyə hesabatları ədalətli dəyərdə ölçülən satışı mümkün olan maliyyə aktivləri, törəmə maliyyə alətləri, torpaq və binalar və investisiya xüsusiyyətləri istisna olmaqla tarixi qiymət əsasında hazırlanmışdır. Ədalətli dəyərdə sığortalanan tanınmış aktiv və öhdəliklərin köçürmə dəyərləri, sığorta edilən risklərə aid edilən ədalətli dəyərdə dəyişiklikləri qeyd etmək üçün uyğunlaşdırıldı. Maliyyə hesabatları Azərbaycan manatında göstərilib, əks təqdirdə bütün dəyərlər ən yaxın rəqəmə yuvarlaqlaşdırılır.

**Uyğunluq haqqında bəyanat**

Cəmiyyətin Maliyyə hesabatları Mühasibat Uçotu üzrə Beynəlxalq Standartlar Şurası (MUBSŞ) tərəfindən buraxılan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) müvafiq olaraq hazırlanmışdır.

**Fasiləsizlik prinsipi**

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.
Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi, müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİNİN QISA MƏZMUNU

**Valyutaların yenidən hesablanması**

Cəmiyyətin maliyyə hesabatları Azərbaycan Respublikası manatı (AZN) ilə göstərilmişdir. Azərbaycan manatı "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin fəaliyyət göstərdiyi iqtisadi mühitin əsas valyutası hesab edilir. Cəmiyyət daxilindəki hər bir müəssisə öz yerli valyutasını müəyyən edir və hər bir müəssisənin hesabatında olan maddələr həmin valyuta ilə hesablanır. Xarici valyuta ilə aparılan əməliyyatlar, aparılmış əməliyyatların tarixinə valyuta məzənnəsinə uyğun olaraq yerli valyutada əks etdirilir. Xarici valyutada ifadə edilən monetar aktivlər və öhdəliklər balans tarixində spot məzənnəyə uyğun olaraq yerli valyutada yenidən hesablanır. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto–investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalamaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir. Xarici valyutadakı məzənnə fərqlərindəki xərclərə aid olan kreditlər və vergi xərcləri ilkin əməliyyat tarixindəki məzənnəyə əsasən dəyişdirilir. Xarici valyutanın ədalətli dəyəri ilə hesablanan qeyri-monetar maddələr ədalətli dəyərin qəbul olunduğu günə olan məzənnəyə əsasən dəyişdirilir. Monetar maddələr üzrə mübadilə fərqləri mənfəət və ya zərərdə tanınır.
Cəmiyyətin maliyyə hesabatlarının hazırlanmasında tətbiq etdiyi valyuta mübadiləsi məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| 1 ABŞ dolları/AZN | 1,7000 | 1,7000 |
| 1 Avro/AZN | 1,7724 | 1,8766 |

**Gəlirlərin tanınması**

Gəlir, Cəmiyyətə gələcəkdə iqtisadi səmərənin daxil olması və onların etibarlı əsasda qiymətləndirilməsi ehtimalı olduqda tanınır. Gəlirin məbləği, alış-satış ilə bağlı hər hansı güzəşt məbləğləri və cəmiyyət tərəfindən edilmiş güzəştlər nəzərə alınmaqla, alınmış və ya alınacaq vəsaitlərin ədalətli dəyəri ilə ölçülür. Cəmiyyətin gəlirləri aşağıdakı qaydada tanınır:

*(a) Dövlət büdcəsindən ayrılan vəsait*

Cəmiyyət fəaliyyətinin davamlılığının təmin edilməsi məqsədilə Dövlət büdcəsindən vəsait tələbi edir. Həmin ayırmalar «AZTV» QSC-nin aşağıdakı əsas fəaliyyət sahələri üçün köçürülür.

1) Dövlətin və cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici televiziya və radio proqramlarının hazırlanması
2) Onların Azərbaycan Respublikasının ərazisində və xarici ölkələrdə yayımlanması
3) Televiziya və radio proqramlarının müvafiq ideya-bədii səviyyəsinin təmin edilməsi
4) Cəmiyyətin demokratikləşməsi sahəsində onların təsirinin gücləndirilməsinin həyata keçirilməsi
5) Mövcüd olan peyk, kabel və digər rabitə sistemlərinin istismarı və yenilərinin yaradılması
6) Proqramların (verilişlərin) mövzu rəngarəngliyinin təmin edilməsi

*(b) Xidmətlərin göstərilməsi*

Cəmiyyət kommersiya fəaliyyətindən əldə edilən gəlirlər hesabına xidmətlərin göstərilməsi üzrə fəaliyyət göstərir.

*(c) Faiz gəlirləri*

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır.

**Vergilər**

*(d) Cari mənfəət vergisi*

Mənfəət vergisi hazırki maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan Vergi Məcəlləsinə uyğun olaraq hesablanmışdır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərərlə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergi dərəcəsi və vergi qanunları, göstərilmiş və ya mühasibat balansı ilə sabit göstərilən məbləğləri hesablamaq üçün istifadə olunur.

*(e) Təxirə salınmış mənfəət vergisi*

Təxirə salınmış mənfəət vergisi öhdəliklər metodu istifadə edilməklə, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir.

Təxirə salınmış vergi öhdəlikləri vergiyə cəlb olunan bütün zaman fərqləri əsasında tanınır. Yalnız:

- Təxirə salınmış vergi öhdəlikləri qudvilin, aktivin və ya öhdəliyin biznes birləşməsi əməliyyatından başqa ilkin tanınma zamanı əmələ gəlir. Qeyd olunan əməliyyat nə uçot nə də vergiyə cəlb olunan mənfəətə heç bir təsir etmir; və
- Aşağıdakı hər iki şərtə cavab verən hissəsi istisna olmaqla, Cəmiyyət, törəmə və asılı müəssisələrinə, filiallara və birgə müəssisələrdə iştirak paylarına investisiyalar ilə əlaqədar bütün vergi tutulan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi öhdəliyini tanımalıdır:

1) əsas müəssisə, investor və ya sahibkar müvəqqəti fərqin bərpa olunmasının vaxt üzrə paylanmasını idarə edə bilər; və
2) müvəqqəti fərqin yaxın gələcəkdə bərpa olunmayacağı ehtimalı var.

Aktivin tanınması cəmiyyətə gələcək dövrlərdə daxil olacaq iqtisadi səmərələr şəklində həmin aktivin balans dəyərinin bərpa olunmasını nəzərdə tutur. Aktivin balans dəyəri onun vergi bazasından artıq olduğu zaman, vergi tutulan iqtisadi səmərələrin məbləği vergi məqsədləri üçün çıxılmasına yol verilən məbləğdən artıq olacaq. Bu fərq

vergi tutulan müvəqqəti fərqdir, yaranan mənfəət vergisini gələcək dövrlərdə ödəmək öhdəliyi isə təxirə salınmış vergi öhdəliyidir. Aktivin balans dəyəri bərpa olunduqca, vergi tutulan müvəqqəti fərq bərpa olunacaq və cəmiyyət vergi tutulan mənfəət əldə edəcəkdir. Bu, iqtisadi səmərələrin cəmiyyətdən vergi ödənişləri şəklində xaric olacağı ehtimalını yaradır. Yalnız:

- vergi tutulan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivi, aktiv və ya öhdəliyin biznes birləşməsi əməliyyatından başqa ilkin tanınma zamanı əmələ gəlir. Qeyd olunan əməliyyat nə uçot nə də vergiyə cəlb olunan mənfəətə heç bir təsir etmir; və
- vergi tutulan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivinin istifadəsi, cəmiyyət, törəmə və asılı müəssisələrinə, filiallara və birgə müəssisələrdə iştirak paylarına investisiyalar yatırılan zaman, mövcud olan vergi tutulan müvəqqəti fərqlərin bərpa olunmasından yaranan mənfəətdən artıq olan gələcək vergi tutulan mənfəətdən asılı olduqda mümkündür.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hər balans hesabatı tarixində yoxlanılmalıdır. Cəmiyyət balans dəyərini, bu təxirə salınmış vergi aktivinin tam məbləği və ya onun bir hissəsindən səmərə əldə etməyə yol verən kifayət qədər vergi tutulan mənfəətin əldə olunacağı ehtimalının artıq olmadığı dərəcədə azaltmalıdır. Hər hansı belə azalma kifayət qədər vergi tutulan mənfəətin əldə olunacağı ehtimalının yarandığı dərəcədə bərpa olunmalıdır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, balans hesabatı tarixinə qədər qüvvədə olan və ya mahiyyət etibarilə qüvvədə olan vergi dərəcələri (və vergi qanunvericiliyi) əsasında aktivin realizasiya olunduğu və ya öhdəliyin yerinə yetirildiyi dövrə tətbiq ediləcəyi gözlənilən vergi dərəcələri ilə qiymətləndirilməlidir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri o zaman tanınırlar ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb oluna biləcək mənfəət əldə edilməsi ehtimalı vardır.

*(f) Satış vergisi*

Gəlirlər, xərclər və aktivlər hesabatda satış vergisi istisna edilməklə (çıxılmaqla) göstərilir. Vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) satış vergisi xalis məbləğlə hesabat balansında göstərilir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə alətləri üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun maliyyə vəziyyəti haqqında hesabatında tanınır. Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya çıxarılması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə aktivlərindən başqa), ilkin tanınma zamanı maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə müvafiq olaraq əlavə edilir və ya çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

Maliyyə aktivlərinin təsnifatı

a) Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- Maliyyə aktivinin müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitlərinin axınınını yığılması üçün maliyyə aktivlərinin saxlanılması məqsədilə maliyyə aktivi biznes modeli çərçivəsində saxlanılır; və

- Maliyyə aktivinin müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinə yönəldir.

b) Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- Maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıdıqda, biznes modeli çərçivəsində saxlanılır; və

- Maliyyə aktivi üzrə müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq. Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılanmadıqda Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və

- Cəmiyyət uçot sistemində uyğunsuzluğu əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD edə bilər,

*(g) Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınan və ya yaranan kredit zərərinə uğramış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri, ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi qalıq dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə uğramış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti, daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət, mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliyinin təsnifatını seçmir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Mərkəz ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi kreditor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür.

Kreditor borcları və alınacaq digər vəsaitlər üçün, əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömür boyu ehtimal olunan kredit zərəri əsasında ölçülür. Mərkəz ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-ə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Silinmələr**

Cəmiyyətin maliyyə aktivini bərpa etmək üçün əsaslı gözləntiləri olmadıqda (ya bütövlükdə, ya da bir hissəsi) belə maliyyə aktivləri silinir. Bu, Cəmiyyət tərəfindən qarşı tərəfin silinməyə məruz qalan məbləğləri ödəmək üçün kifayət qədər pul vəsaitlərinin hərəkəti yarada biləcək aktivləri və/və ya gəlir mənbələri olmadığını müəyyənləşdirdiyi haldır. Silinmə, tanınmanın dayandırılması hadisəsini təşkil edir.

**Kreditlər və borclar**

İlkin tanınmadan sonra, effektiv faiz dərəcəsi metodu tətbiq olunaraq faiz gəliri gətirən öhdəliklər amortizasiya edilmiş dəyərlə hesablanır.
Mənfəət və ya zərər amortizasiya prosesi zamanı və ya öhdəliyin tanınması dayandırılan zaman mənfəət və zərər hesabatında tanınır.

**Maliyyə zəmanətli müqavilələr**

Cəmiyyət tərəfindən buraxılan maliyyə zəmanətli müqavilələr, debitor tərəfindən müqavilə şərtlərinə əməl etməyərək vaxtında ödəniş etməzsə səhm sahibinə dəyən ziyanın ödənişini nəzərdə tutan müqavilələrdir. Maliyyə zəmanətli müqavilələr ilkin olaraq ədalətli dəyərdə öhdəlik kimi və müqavilənin bağlanmasına çəkilən xərclər daxil olmaqla qəbul edilir. Bundan sonra, öhdəlik balans hesabatı tarixində cari öhdəliyin yerinə yetirilməsi üçün tələb olunan xərclərin və ya tanınmış məbləğdən amortizasiyanın fərqi arasından ən böyüyü kimi qəbul edilir.

**Müştərilərə verilmiş borc avanslar**

Cəmiyyət müştərilərə verilmiş borc və avans məbləğlərini birinci növbədə eyni dərəcədə əhəmiyyətli olan maliyyə aktivləri üçün ayrı-ayrılıqda və eyni dərəcədə əhəmiyyətli olmayan maliyyə aktivləri üçün ayrı-ayrılıqda və ya kollektiv şəkildə dəyərdən düşmə ilə bağlı obyektiv sübutun olub-olmamasını müəyyən edir. Əgər cəmiyyət müəyyən edirsə ki, fərdi olaraq qiymətləndirilmiş maliyyə aktivinin dəyərdən düşməsi haqqında heç bir obyektiv sübut yoxdur, əhəmiyyətli olub-olmamağından asılı olmayaraq o, həmin aktivi eyni kredit (borc) riski xüsusiyyətləri ilə maliyyə aktivləri qrupuna daxil edir və onların ümumi şəkildə dəyərdən düşməsini təyin edir. Dəyərdən düşmədən dəyən zərərləri tanınan və ya tanınmaqda davam edən dəyərdən düşmə üçün fərdi şəkildə müəyyən olunan aktivlər ümumi qiymətləndirmənin tərkibinə daxil edilmir.

Əgər qiyməti təyin edilməmiş kapital alətləri (ədalətli dəyəri düzgün qiymətləndirilə bilmədiyindən bu dəyərdə qiymətləndirilməyən) və ya törəmə aktivi (kapital aləti ilə əlaqəli və bu cür qiyməti müəyyən olunmamış kapital alətinin təqdim edilməsi ilə uçota salınan nizama salınmalıdır) ilə bağlı dəyərdən düşmədən dəyən zərərinin baş verməsi barədə obyektiv sübut varsa, oxşar bir maliyyə aktivi üçün cari bazar faizi gəlirliliyində diskontlaşdırılmış gözlənilən gələcək pul vəsaitinin hazırkı dəyəri arasındakı fərq kimi qiymətləndirilir. Əgər qiyməti təyin edilməmiş kapital alətləri (ədalətli dəyəri düzgün qiymətləndirilə bilmədiyindən bu dəyərdə qiymətləndirilməyən) və ya törəmə aktivi (kapital aləti ilə əlaqəli və bu cür qiyməti müəyyən olunmamış kapital alətinin təqdim edilməsi ilə uçota salınan nizama salınmalıdır) ilə bağlı dəyərdən düşmədən dəyən zərərinin baş verməsi barədə obyektiv sübut varsa, oxşar bir maliyyə aktivi üçün cari bazar faizi gəlirliliyində diskontlaşdırılmış gözlənilən gələcək pul vəsaitinin hazırkı dəyəri arasındakı fərq kimi qiymətləndirilir.

Cəmiyyət balans dəyərini qiymətləndirilən gələcək nəğd pul axınlarının cari dəyərinin maliyyə alətinin ilkin effektiv faiz dərəcəsində hesablanması ilə yenidən kalkulyasiya edir.

Əgər ssuda, debitor borcu və ya müddəti bitənə qədər saxlanılan investisiya dəyişkən faiz dərəcəsinə malikdirsə, hər hansı korlanmadan zərəri hesablamaq üçün uçot dərəcəsi müqavilə əsasında təyin olunmuş cari effektiv faiz dərəcəsidir.

**Maliyyə öhdəlikləri**

Cəmiyyət öz balansından maliyyə öhdəliyini ya müqavilədə müəyyən olunmuş öhdəlik yerinə yetirilməmiş, ya ləğv olunmuş və ya da müddəti bitmiş olsa kənarlaşdıra bilər.

Başlıca olaraq müxtəlif şərtlərlə borc alətlərini mövcud borc alan və borc verən arasındakı mübadilə ilkin maliyyə öhdəliyinin dayandırılması və yeni maliyyə öhdəliyinin tanınması üçün uçota alınacaqdır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin şərtlərinin əsaslı dəyişdirilməsi ilkin maliyyə öhdəliyinin dayandırılması və yeni maliyyə öhdəliyinin tanınması üçün uçota alınacaqdır. Dayandırılmış və ya digər bir tərəfə köçürülmüş maliyyə öhdəliyinin balans dəyəri ilə köçürülmüş hər hansı bir nağdsız aktivlər və ya götürülmüş öhdəliklər də daxil olmaqla ödənilmiş kompensasiya arasındakı fərq mənfəət və ya zərərdə tanınacaqdır.

**Törəmə maliyyə alətləri və hedcinq zamanı uçot**

İlkin tanınma və növbəti ölçülmə
Cəmiyyət forvard valyuta müqavilələri və faiz mübadilələri kimi maliyyə alətlərini müvafiq olaraq xarici bazar riski və faiz dərəcəsi risklərini sığortalamaq üçün istifadə edir. Bu kimi törəmə maliyyə alətləri ilkin olaraq törəmə müqavilənin bağlandığı tarixdəki ədalətli dəyərdə tanınır və sonralar ədalətli dəyərdə yenidən ölçülür. Törəmələr, ədalətli dəyər pozitiv olarkən maliyyə aktivləri, neqativ olarkən isə maliyyə öhdəlikləri kimi qəbul edilir.
Hesabat dövrü ərzində hedcinq zamanı uçot və ya effektiv hedcinqə məxsus effektiv olmayan hissəsi tələblərinə cavab verməyən, törəmənin ədalətli dəyərində baş verən dəyişikliklər mənfəət və zərər hesabatına silinir.

Forvard valyuta müqavilələrinin ədalətli dəyəri, forvard mübadilə dərəcəsi ilə müqavilə dərəcəsi arasındakı fərqdir. Forvard mübadilə dərəcəsi oxşar ödənilmə tarixi bitən maliyyə alətləri müqavilələrinin cari mübadilə tarixinə olan dərəcələri ilə ölçülür. Faizli svop müqaviləsinin ədalətli dəyəri oxşar maliyyə aktivinin cari bazar qiymətinə əsaslanaraq hesablanır.

Hedc zamanı uçot məqsədləri üçün hedclər aşağıdakı növlərə ayrılır:

- ədalətli dəyər hedcinqi: tanınmış aktivin və ya öhdəliyin və ya tanınmamış şərti öhdəliyinin ədalətli dəyərində dəyişikliklərə məruz qalmanın hedcinqi,
- pul vəsaitləri hərəkətinin hedcinqi: pul vəsaitlərində dəyişkənliyə məruz qalmanın hedcinqi, o, tanınmış aktiv və ya öhdəliklə əlaqələndirilən ciddi bir riskə ya da yüksək ehtimalla proqnozlaşdırılan əməliyyata aiddir və
- xarici əməliyyatda xalis investisiyanın hedcinqi.

**Torpaq, tikili və avadanıqlar**

Tikili və avadanlıqlar onların maya dəyəri, toplanmış amortizasiya məbləği və dəyərdən düşmə fərqi çıxılmaqla hesabatda öz əksini tapır. Maya dəyəri dedikdə tikili və avadanlıqların hissələrinin dəyişdirilməsinə çəkilən xərclər, uzunmüddəli tikinti müqavilələri zamanı çəkilən borclar üzrə məsrəflər (tanınma meyarlarına uyğun gələrsə) daxil olmaqla hesablanır. Eynilə əsaslı təftişin aparılması zamanı çəkilən məsrəflər, tanınma meyarlarına uyğun gəldikdə, tikili və avadanlıqların balans dəyərində əvəzləşdirmə kimi tanınır. Tikili və avadanlıqlara çəkilən bütün digər xərclər cari dövrün xərcləri kimi tanınaraq mənfəət və zərər hesabına silinir. Tikili və avadanlıqların istismardan çıxarılmasına çəkilən xərclərin cari diskontlaşdırılmış dəyəri üçün yaradılmış ehtiyat tanınma meyarlarına uyğun gələrsə müvafiq əsas vəsaitin dəyərinə aid edilir. Əsas vəsaitlərin istismardan çıxarılması ilə bağlı əlavə məlumat əldə etmək üçün ehtiyatlara istinad edilir.

Torpaq və binalar, binaların amortizasiya məbləğinin və yenidənqiymətləndirmədən sonra baş vermiş dəyərdən düşmə məbləğinin ədalətli dəyərdən çıxılması ilə hesablanır. Yenidənqiymətləndirmə, yenidən qiymətləndirilmiş aktivin ədalətli dəyərinin balans dəyərindən fərqlənmədiyindən əmin olmaq üçün tez-tez aparılır.

Əgər yenidənqiymətləndirmə nəticəsində aktivin balans dəyəri azalarsa, bu zaman həmin azalma mənfəət və zərər haqqında hesabatda tanınmalıdır. Lakin, əgər əvvəlki tarixlərdə aparılan yenidənqiymətləndirmə nəticəsində hər hansı yenidənqiymətləndirmə artımı yaranmışsa və o artım yenidənqiymətləndirmə başlığı altında kapitalın kreditinə yazılmışsa, hər hansı növbəti hesabat tarixində yaranan azalma yenidənqiymətləndirmə hesabının kredit qalığı müqabilində həmin hesabın debitinə yazılmalıdır.

Bölüşdürülməmiş mənfəətə köçürülmüş artımın məbləği aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiyası ilə aktivin ilkin dəyəri əsasında tanınan amortizasiyası arasındakı fərqi təşkil edir. Yenidənqiymətləndirmə tarixinə hər hansı yığılmış amortizasiya məbləği aktivin ümumi balans dəyərinə qarşı silinir, xalis məbləğ isə yenidən qiymətləndirilən məbləğə bərabər olması üçün yenidən təqdim edilir. Satış zamanı, satılan aktivin yenidənqiymətləndirmə ehtiyatındakı payı bölüşdürülməmiş mənfəətə köçürülür.

Aktivlərin amortizasiyası azalan qalıq dəyəri metodu istifadə olunmaqla istismar müddəti boyunca aşağıdakı qaydada hesablanır:

| | |
|---|---|
| • Binalar | 15-40 il (1-7%); |
| • Qurğu və avadanlıqlar | 5-10 il (10-20%); |
| • Nəqliyyat vasitələri | 8-10 il (10-25%); |
| • Mebel, ləvazimatlar və digər ofis avadanlıqları | 1-5 il (10-20%). |

# 9. QEYRİ -MADDİ AKTİVLƏR

| | Qeyd | Proqram təminatı | Digər qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|
| ***İlkin dəyər:*** | | | | |
| **1 Yanvar 2023-ci il tarixinə** | | **67,873** | **9,490,302** | **9,558,175** |
| Əlavələr | | 114,123 | 1,477,049 | **1,591,172** |
| Silinmə | | (118,878) | - | **(118,878)** |
| **31 Dekabr 2023-ci il tarixinə** | | **63,119** | **10,967,350** | **11,030,469** |
| Əlavələr | | 12,561 | 1,031,770 | **1,044,332** |
| Ehtiyyatlardan köçürmələr | | - | 835,266 | **835,266** |
| Silinmə | | - | - | **-** |
| **31 Dekabr 2024-cü il tarixinə** | | **75,680** | **12,834,386** | **12,910,067** |
| | | | | |
| ***Köhnəlmə:*** | | | | |
| **1 Yanvar 2023-ci il tarixinə** | | **(25,478)** | **(136,878)** | **(162,356)** |
| İl üzrə köhnəlmə | | (7,210) | (343,846) | **(351,056)** |
| Silinmə | | 682 | - | **682** |
| **31 Dekabr 2023-ci il tarixinə** | | **(32,005)** | **(480,724)** | **(512,729)** |
| İl üzrə köhnəlmə | | (3,660) | (584,055) | **(587,716)** |
| Xaricolmalar | | - | - | **-** |
| **31 Dekabr 2024-cü il tarixinə** | | **(35,666)** | **(1,064,779)** | **(1,100,445)** |
| | | | | |
| **Xalis dəyər:** | | | | |
| **31 Dekabr 2023-ci il tarixinə** | | **31,114** | **10,486,627** | **10,517,740** |
| **31 Dekabr 2024-ci il tarixinə** | | **40,015** | **11,769,607** | **11,809,622** |

## 10. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

| | Binalar | Qurğular | Ötürücü qurğular | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | İstehsalat alətləri və təsərrüfat inventarları | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| ***İlkin dəyər*** | | | | | | | |
| **1 Yanvar 2023-cü il tarixində qalıq** | **11,757,877** | **456,003** | **84,192** | **67,230,425** | **1,946,689** | **1,703,115** | **83,178,301** |
| Əlavələr | - | - | - | 1,996,993 | 22,976 | - | **2,019,969** |
| Silinmə | - | - | - | (237,672) | (47,600) | (10,322) | **(295,594)** |
| **31 Dekabr 2023-cü il tarixində qalıq** | **11,757,877** | **456,003** | **84,192** | **68,989,745** | **1,922,065** | **1,692,793** | **84,902,675** |
| **1 Yanvar 2024-cü il tarixində qalıq** | **11,757,877** | **456,003** | **84,192** | **68,989,745** | **1,922,065** | **1,692,793** | **84,902,675** |
| Əlavələr | - | - | - | 335,450 | 126,186 | - | **461,636** |
| Ehtiyyatlardan köçürmələr | - | - | - | 19,377 | 79,024 | - | **98,401** |
| Silinmə | - | - | - | (524) | (40,812) | - | **(45,532)** |
| **31 Dekabr 2024-cü il tarixində qalıq** | **11,757,877** | **456,003** | **84,192** | **69,344,048** | **2,086,464** | **1,692,793** | **85,421,377** |
| ***Köhnəlmə*** | | | | | | | |
| **1 Yanvar 2023-cü il tarixində qalıq** | **(659,982)** | **(319,555)** | **(83,624)** | **(60,023,455)** | **(1,607,867)** | **(1,600,424)** | **(64,294,908)** |
| İl üzrə köhnəlmə | (435,039) | (11,509) | (89) | (1,773,918) | (71,092) | (20,258) | **(2,311,906)** |
| Silinmə | - | - | - | 237,672 | 47,600 | 10,322 | **295,594** |
| **31 Dekabr 2023-cü il tarixində qalıq** | **(1,095,022)** | **(331,064)** | **(83,714)** | **(61,559,700)** | **(1,631,359)** | **(1,610,360)** | **(66,311,219)** |
| **1 Yanvar 2024-cü il tarixində qalıq** | **(1,095,022)** | **(331,064)** | **(83,714)** | **(61,559,700)** | **(1,631,359)** | **(1,610,360)** | **(66,311,219)** |
| İl üzrə köhnəlmə | (746,400) | (8,746) | (33) | (1,621,504) | (95,061) | (16,486) | **(2,488,231)** |
| Silinmə | - | - | - | 524 | 40,812 | - | **41,336** |
| **31 Dekabr 2024-cü il tarixində qalıq** | **(1,841,421)** | **(339,810)** | **(83,747)** | **(63,180,680)** | **(1,685,608)** | **(1,626,847)** | **(68,758,114)** |
| ***Balans dəyərləri*** | | | | | | | |
| **31 Dekabr 2023-cü il tarixində** | **10,662,856** | **124,939** | **478** | **7,430,045** | **290,706** | **82,432** | **18,591,456** |
| **31 Dekabr 2024-cü il tarixində** | **9,916,456** | **116,193** | **445** | **6,163,368** | **400,855** | **65,946** | **16,663,263** |

## 11. GƏLƏCƏK HESABAT DÖVRÜNÜN XƏRCLƏRİ

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| Digər qısamüddətli aktivlər | - | 51,924 |
| | **-** | **51,924** |

## 12. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Bank hesablarında olan pul vəsaitləri | 31,233 | 17,994 |
| ƏDV depozit hesabında olan pul vəsaitləri | - | - |
| | **31,233** | **17,994** |
| Bank hesablarinda olan pul vəsaitlərindən: | | |
| • Milli Valyutada olan Bank hesabları | 31,233 | 17,994 |
| • Xarici Valyutada olan Bank hesabları | - | - |
| | **31,233** | **17,994** |

## 13. TİCARİ VƏ SAİR DEBİTOR BORCLARI

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Ticari debitor borcları | 6,682 | 10,860 |
| | **6,682** | **10,860** |

## 14. MAL- MATERİAL EHTİYATLARI

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Mal-material ehtiyatları | 3,936,014 | 3,932,009 |
| | **3,936,014** | **3,932,009** |

## 19. MÜQAVİLƏ ÖHDƏLİKLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Müqavilə öhdəlikləri | 10,030 | 10,030 |
| | **10,030** | **10,030** |

## 20. DİGƏR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Digər qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 460,643 | - |
| | **460,643** | **-** |

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİNİN MƏQSƏDİ

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Bazar riski**

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyəri ilə dəyişə bilər.

Hər hansı bir təhlillər pensiya və digər post-pensiya öhdəlikləri üzrə balans dəyəri və qeyri-maliyyə aktivlərinin və xarici əməliyyatların öhdəlikləri üzrə bazar parametrlərində hərəkətlərin təsirini istisna edir.

Aşağıdakı fikirlər həssaslıq analizlərini hesablayarkən edilmişdir:

- Mühasibat balansı həssaslığı yalnız törəmələrə və satış üçün mümkün olan borc alətlərilə əlaqəlidir;
- Gəlir bəyanatının həssaslığı il ərzində faiz gəlirlərində qəbul edilən faiz dərəcələrinin dəyişməsinin, 31 dekabr 2024-cü ilə qalmış qeyri-ticarət maliyyə aktiv və öhdəliklərinin və hedcinq alətlərinin effektidir;
- 31 dekabr 2024-cü il tarixinə kapitalın həssaslığı, satış üçün mümkün olan maliyyə aktivlərinin yenidən hesablanması, hər hansı hedcinq birləşməsi və mübadilələrin nəğd pul hərəkətinin hedcinqi kimi müəyyən edilməsi və faiz dərəcələrində qəbul edilən dəyişikliklər əsasında hesablanır. Kapitalın həssaslığı, vaxtı çatmış aktiv və mübadilə əsasında analiz edilir.

**Faiz dərəcəsi riski**

Faiz dərəcəsi riski, maliyyə alətinin gələcək nəğd pul axınları və ədalətli dəyərinin bazar faizlərində dəyişikliklər səbəbindən tərəddüd edəcəyi riskdir. Cəmiyyətin bazar faiz dərəcələrinin dəyişilmə riskinə məruz qalması onun qısamüddətli maliyyə aktivi ilə əlaqəlidir. Cəmiyyət faiz dərəcəsi riskini, balans olunmuş sabit və dəyişkən dərəcəli kredit portfeli və borclarına malik olmaqla idarə edir. Cəmiyyətin siyasəti borclarını 80-90 % arasında sabit faiz dərəcəsi ilə saxlamaq və borcları dayandırılmış əməliyyatlardan çıxarmaqdır. 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin əhəmiyyətli dərəcədə dəyişən faiz dərəcəsi riskinə məruz qalan faiz öhdəlikləri olmamışdır.

**Xarici valyuta riski**

Xarici valyuta riskini idarə edərkən Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Qeyri-maliyyə aktivləri əhəmiyyətli valyuta risklərinin yaranmasına gətirib çıxarmır. Ticarət əməliyyatları nəticəsində xarici valyuta riskinə nəzarət Mərkəzin müqavilə əsasında cəlb etdiyi kənar maliyyəçi tərəfindən müntəzəm olaraq həyata keçirilir və aşağıdakı qaydada idarə olunur:

I. Hər səviyyə üzrə xarici valyutalar arasında mövqelərin və bu valyutalar üzrə müvafiq likvidlik səviyyələrinin monitorinqi;
II. Xarici valyutaların, xüsusilə də ABŞ dollarının məzənnələrində gələcək dəyişmələrin proqnozlaşdırılması.

Mərkəzin mənfəət və zərərinə təsirindən əlavə valyuta dəyişmə dərəcələrində belə dəyişikliklərin Mərkəzin kapitalına təsiri mövcud deyil. Məruz qalma Mərkəz müəssisəsinin əməliyyat valyutası olmayan valyutada əks etdirilən maliyyə qalıqları üçün hesablanır.

**Likvidlik riski**

Likvidlik riski müəssisənin maliyyə öhdəliklərini yerinə yetirməsi zamanı üzləşəcəyi çətinliklərlə bağlı riskdir. Mərkəz əlində olduğu pul vəsaitləri üzrə gündəlik tələblərə məruz qalır. Likvidlik riski Mərkəzin kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri tərəfindən idarə edilir. Rəhbərlik hər ay Mərkəzin pul vəsaitləri hərəkətinin dəyişdirilən proqnozlarının monitorinqini həyata keçirir.

Mərkəzin likvidliyin idarə olunması üzrə rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini, maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti üzrə likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri gündəlik likvidlik mövqeyinin monitorinqini və normal və ciddi bazar şərtlərini əhatə edən mütəmadi likvidlik mövqeyinin yoxlanılmasını keçirir. Kənardan cəlb edilmiş maliyyə mütəxəssislərinin öhdəliklərinə aşağıdakılar daxildir:

i. pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və hesabatın verilməsi;
ii. likvidlik riskinin toplanması faktoru kimi ən böyük təchizatçıların monitorinqi;
iii. lazım olduqda, orta və qısamüddətli borcların əldə edilməsi məqsədi ilə yerli və beynəlxalq bazarlara fəal cəlb edilmə;
iv. Mərkəzin inkişaf edən fəaliyyəti sayəsində mümkün olan pul vəsaitləri hərəkətinin monitorinqi.

**Pul vəsaitləri və onların ekvivalentləri**

31 dekabr 2024-cü il tarixində Cəmiyyət 31,233 AZN məbləğində pul vəsaitləri və onların ekvivalentlərinə sahib olmuşdur (31 dekabr 2023: 17,994 AZN) və bu məbləğ həmin aktivlər üzrə kredit riskinə məruz qalan maksimal məbləğdir.

**Kredit riski**

Kredit riski müştəri və ya maliyyə aləti üzrə kontragent müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə, Şirkətin maliyyə zərərinə məruz qalması riskidir və əsasən Şirkətin müştərilərdən alınacaq debitor borclarından, əlaqəli tərəflərə verilmiş qısamüddətli kreditlərdən və pul və pul vəsaitlərindən yaranır.
Maliyyə aktivlərinin balans dəyəri maksimum kredit riskinə məruz qalmanı əks etdirir.

| Maliyyə aktivlərinin sinifləri - qalıq dəyərləri | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 31,233 | 17,994 |
| Ticari və sair debitor borcları | 6,682 | 10,860 |
| **Cəmi qalıq dəyəri** | **37,915** | **28,854** |

## 22. ŞƏRTİ ÖHDƏLİKLƏR

### a) Sığorta

Azərbaycan Respublikasında sığorta sahəsi inkişaf mərhələsindədir və dünyanın digər ölkələrində qəbul edilmiş sığortalamanın bir çox formaları Azərbaycanda hələ mövcud deyil. Cəmiyyətin öz tikililəri, qurğu və avadanlıqları, biznes fəaliyyətinin kəsilməsi və ya Cəmiyyətə məxsus əmlakda və ya onun əməliyyatları ilə bağlı baş vermiş hadisələr nəticəsində əmlaka və ya ətraf mühitə zərərin vurulması ilə əlaqədar üçüncü tərəf məsuliyyətinə dair tam sığorta təminatı yoxdur. Cəmiyyət adekvat sığorta təminatını əldə edənə qədər, müəyyən aktivlərin itirilməsi və ya məhv olmasının Cəmiyyətin fəaliyyətinə və maliyyə vəziyyətinə ciddi mənfi təsir vuracağı riski mövcuddur.

### b) Məhkəmə iddiası

Cəmiyyət maliyyə hesabatlarına əhəmiyyətli təsir edə bilən heç bir məhkəmə iddiasında iştirak etməmişdir.

### c) Vergi təəhhüdləri

**Azərbaycanda vergi təəhhüdləri**

Azərbaycanın vergiqoyma sistemi nisbətən yeni olduğuna görə bir çox hallarda aydın olmayan, ziddiyyətli və müxtəlif vergi orqanları tərəfindən fərqli qaydada təfsir edilən qanunvericilikdə tez-tez dəyişikliklər, rəsmi göstərişlər və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər ciddi cərimə və faizlər təyin etmək səlahiyyətinə malik orqanların müxtəlif səviyyələrində yoxlanılır və tədqiq olunur. Vergi ili adətən vergi orqanları tərəfindən üç təqvim ili ərzində yoxlanıla bilər; lakin, müəyyən hallarda, vergi ili daha uzun müddət ərzində yoxlama üçün açıq qala bilər. Bu şəraitlər digər ölkələrlə müqayisədə Azərbaycanda daha ciddi vergi risklərinin yaranmasına səbəb ola bilər. Rəhbərlik hesab edir ki, qüvvədə olan vergi qanunvericiliyinin, rəsmi göstərişlərin və məhkəmə qərarlarının təfsirlərinə əsasən vergi öhdəlikləri ilə əlaqədar adekvat tədbirlər görmüşdür. Buna baxmayaraq, müvafiq səlahiyyətli orqanların təfsirləri fərqli ola bilər və bu orqanlar öz təfsirlərinin tətbiqinə nail olduqda, onların hazırkı maliyyə hesabatlarına təsiri əhəmiyyətli ola bilər.

## 23. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir.

Məmmədov Rövşən
Sədr

Əsədzadə Aysel
Maliyyə və Mühasibat uçotu departamentinin rəisi